# 2

# VƏHY

Tərlan Seyfullayev[1]

Xülasə

Ərəb dili lüğətində “Vəhiy” sözü üçün bir çox mənalar qeyd olunmuşdur. Məsələn; söz, yazı, rəmzli işarələr, ilham olmaq və s . Lakin terminoloji mənası isə Allah-taalanın müəyyən hədəflər əsasənda öz Peyğəmbərlərindən birinə qeri adi bir yolla həmçinin öz yaxın mələyi  və ya digər bir vasitələrlə çatdırdığı söz, fərman və göstərişə vəhy deyilir. Vəhy Quranda mələklər, şeytanlar, insan, heyvan və yer haqqda işlədilmişdir.

Vəhyin ən çox istifadə olunduğu yer Peyğəmbərlər haqqındadır. Vəhy bu mənada Qurani-kərimdə 70-dəfədən artıq işlədilmişdir. Vəhy sözü digər mənalarda və digər yerlərdə çox az işlədilmişdir.

Allah-taala ilə Peyğəmbərlər arasında olan vəhy üç halda həyata keçmişdir.

Heç bir vasitə olmadan nazil olan vəhylər, səs icad etmək və Mələk vasitəsi ilə nazil olan vəhylər:

Açar sözlər: Vəhy, Quran, ilham, peyğəmbər, sehr.

Giriş

O, kefi istəyəni danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir. (Nəcm surəsi, ayə 3.)

Müqəddəs kitabımız Qurani-kərim vəhy yolu ilə həzrət Muhəmmədə (s) nazil olmuşdur. Başqa bir cümlə ilə desək seçilmiş insan ilə qeyb aləmi arasında olan rabitə vəhy yolu ilə olub. Elə buna görə əkəsər Quran elmləri haqqında kitab yazanlar vəhy mövzusundan başlayıblar. Quran elmlərində hər bir mövzunun özünə məxsus əhəmiyyəti vardır. Amma Qurani-kərim ki, vəhy yolu olə nazil olub vəhy Quran elmlərində ən mühüm və əhəmiyyətli mövzulardan biri sayılır.

Vəhyin leksik mənası

Ərəb dili lüğətində “Vəhiy” sözü üçün bir çox mənalar qeyd olunmuşdur.

---

. seyfi14@mail.ru: ١

Biz onun bir neçə mənasını qeyd edirik.

1-Söz, yazı, və ya rəmzli işarələr vasitəsi ilə işarə etmək.

2-Yazmaq.

3- İlham etmək; Allahın Musanın (ə) anasına ilham etməsi kimi.

4-Gizli, sürətli və rəmzli söz.

5-Bir şəxsi gizli tərzdə anlatmaq.

İbni Mənzur yazır:

Vəhy işarə etmək, yazmaq, yazılmış, ilham etmək, gizli söz digərlərinə çatdırılan hər bir sözə deyilir. وَحَى إليه و أَوْحَى و yəni onunla elə danışırdı ki, digərlərindən gizli idi. (İbn Mənzur Lisanul-ərəb, c.15, s. 379.)

Rağib İsfəhani yazır:

Vəhyin əsl mənası sürətli işarə deməkdir. Bir işin sürətlə baş verməsinə أَمْرٌ وَحْيٌ deyilir. (Yəni sürətli iş.) (Rağib İsfəhani, Əl-mufrədat fi ğəribil-Quran, s.858.)

Firuzabadi yazır: “Vəhy” sözü işarə, yazmaq, yazılmış (kitab və ya məktub) peyğəmbərlik, ilham, gizli kəlam və başqalarına yetirdiyin gizli söz mənalarına malikdir. Vəhy sözü eyni zamanda sürət və tələsmək mənasını daşıyır. (Firuzabadi, Əl-Qamusul-muhit, c.4, s.579.)

Vəhyin terminoloji mənası

Əllamə Təbatəbai (r.h.) bu barədə belə yazır:

Müsəlmanların vəhy barədə olan ümumi nəzərinə əsasən, Quran öz ləfzi ilə Allahın yaxın mələklərindən birinin vasitəsi ilə İslam Peyğəmbərinə (s) göndərilməsindən ibarətdir. (Təbatəbai, Quran dər İslam, s. 72.)

Muhəmməd Hadi Mərifət (r) bu haqqda yazır:

Vəhy Allahın öz Peyğəmbərlərindən birinə mələklə və ya digər vasitə ilə İlahi risaləti (vəzifəni) hədəfi ilə çatdırdığı söz və göstərişə deyilir. (Mərifət, Təlxisut-təmhid, c.1, s.11-13.)

Bu nəzərlərdən belə nəticə alırıq ki, vəhy Allah-taalanın müəyyən hədəflər əsasında öz Peyğəmbərlərindən birinə qeri adi bir yolla həmçinin öz yaxın mələyi və ya digər bir vasitələrlə çatdırdığı söz, fərman və göstərişə deyilir. Belə ki, Peyğəmbər onu kamil və şuurlu tərzdə dərk edərək eşidir və ya görə bilir.

Vəhy Quran baxımında

Vəhy Qurani-kərimdə mələklər, şeytanlar, insan, heyvan və yer haqqda işlədilmişdir. Vəyh və o, kökdən olan sözlər ən çox Peyğəmbərlər haqqda işlədilmişdir. Qeyd olunan ünvanların hər birinin özünə məxsus mənası var. Əlbəttədə lüğəti mənalarının uyğunluğu vardır. İndi isə onlar haqqda bir neçə misal qeyd edək.

## 1-Mələklərə ilhamın olunması;

﴿إِذْ يُوحِي رَبُّكَ إِلَى الْمَلآئِكَةِ أَنِّي مَعَكُمْ فَثَبِّتُواْ الَّذِينَ آمَنُواْ سَأُلْقِي فِي قُلُوبِ الَّذِينَ كَفَرُواْ الرَّعْبَ فَاضْرِبُواْ فَوْقَ الأَعْنَاقِ وَاضْرِبُواْ مِنْهُمْ كُلَّ بَنَانٍ﴾

Ya Peyğəmbərim!) Xatırla ki, o zaman Rəbbin mələklərə belə vəhy edirdi: "Mən də sizinləyəm. Möminlərə qüvvət (mətanət) verin. Mən kafirlərin ürəklərinə qorxu salacağam. Onların boyunlarını vurun, bütün barmaqlarını (əl-ayaqlarını) doğrayın!" (Ənfal surəsi, ayə 12.)

## 2-Allahın insana ilham etməsi; Allahın Musanın (ə) anasına ilham etməsi kimi.

﴿وَأَوْحَيْنَا إِلَى أُمِّ مُوسَى أَنْ أَرْضِعِيهِ فَإِذَا خِفْتِ عَلَيْهِ فَأَلْقِيهِ فِي الْيَمِّ وَلَا تَخَافِي وَلَا تَحْزَنِي إِنَّا رَادُّوهُ إِلَيْكِ وَجَاعِلُوهُ مِنَ الْمُرْسَلِينَ﴾

Biz Musanın anasına (ilham yolu ilə): "Onu (Musanı) əmizdir; elə ki ondan ötrü qorxdun, onu dəryaya (Nil çayına) at. (Uşağın suda boğulacağından) qorxma və (ayrılığına da) kədərlənmə. Biz onu sənə qaytaracaq, özünü də (şəriət sahibi olan) peyğəmbərlərdən edəcəyik!" deyə bildirdik. (Qəsəs surəsi, ayə 7.)

## 3-Kainatda mövcud olan varlığa vəhyin olunması;

﴿يَوْمَئِذٍ تُحَدِّثُ أَخْبَارَهَا بِأَنَّ رَبَّكَ أَوْحَى لَهَا﴾

Məhz o gün (yer) öz hekayətini söyləyəcəkdir. Çünki (bunu) ona sənin Rəbbin vəhy etmişdir (buyurmuşdur)! (Zəlzələ surəsi, ayə 4-5.)

Digər bir ayədə buyurur:

﴿فَقَضَاهُنَّ سَبْعَ سَمَاوَاتٍ فِي يَوْمَيْنِ وَأَوْحَى فِي كُلِّ سَمَاء أَمْرَهَا وَزَيَّنَّا السَّمَاء الدُّنْيَا بِمَصَابِيحَ وَحِفْظًا ذَلِكَ تَقْدِيرُ الْعَزِيزِ الْعَلِيمِ﴾

Allah onları (səmaları) yeddi (qat) göy olaraq iki gündə əmələ gətirdi. O, hər bir göyün işini özünə vəhy edib bildirdi. Biz dünya səmasını qəndillərlə (ulduzlarla) bəzədik və hifz etdik. Bu, yenilməz qüvvət sahibi olan, (hər şeyi) bilən Allahın təqdiridir (əzəli hökmü, qanunudur)!" (Fussilət, surəsi, ayə 12.)

## 4-Şeytanların vəsvəsə etməsi;

﴿وَكَذَلِكَ جَعَلْنَا لِكُلِّ نِبِيٍّ عَدُوًّا شَيَاطِينَ الإِنسِ وَالْجِنِّ يُوحِي بَعْضُهُمْ إِلَى بَعْضٍ زُخْرُفَ الْقَوْلِ غُرُورًا وَلَوْ شَاء رَبُّكَ مَا فَعَلُوهُ فَذَرْهُمْ وَمَا يَفْتَرُونَ﴾

Beləcə, Biz hər peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq. Onlar (biri digərini) aldatmaq məqsədilə bir-birinə təmtəraqlı (zahirən gözəl, daxilən çirkin) sözlər təlqin edərlər. Əgər Rəbbin istəsəydi, onlar bunu etməzdilər. Onları uydurduqları yalanlarla birlikdə boşla getsinlər! (Ənam surəsi, ayə 112.)

﴿وَإِنَّ الشَّيَاطِينَ لَيُوحُونَ إِلَى أَوْلِيَآئِهِمْ لِيُجَادِلُوكُمْ﴾

Həqiqətən, şeytanlar öz dostlarına sizinlə mücadilə etmək üçün təlqin edirlər. (Ənam surəsi, ayə 121.)

## 5-İşarə;

﴿فَخَرَجَ عَلَى قَوْمِهِ مِنَ الْمِحْرَابِ فَأَوْحَى إِلَيْهِمْ أَن سَبِّحُوا بُكْرَةً وَعَشِيًّا﴾

Sonra (Zəkəriyya) mehrabdan öz camaatının qabağına çıxıb onlara belə işarə etdi: "Səhər-axşam (Allahı) təqdis edib şəninə təriflər deyin!" (Məryəm surəsi, ayə 11.)

Gördüyümüz kimi vəhy bu ayədə işarə mənasında işlədilib.

## 6-Heyvana ğərizi ilhamın olunması;

﴿وَأَوْحَى رَبُّكَ إِلَى النَّحْلِ أَنِ اتَّخِذِي مِنَ الْجِبَالِ بُيُوتًا وَمِنَ الشَّجَرِ وَمِمَّا يَعْرِشُونَ﴾

Rəbbin bal arısına belə vəhy etdi: "Dağlarda, ağaclarda və (insanların) qurduqları çardaqlarda özünə evlər tik (pətəklər sal). (Nəhl surəsi, ayə 68.)

## 7-Peyğəmbərlərə vəhyin olunması:

﴿وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ إِلاَّ رِجَالاً نُّوحِي إِلَيْهِمْ فَاسْأَلُواْ أَهْلَ الذِّكْرِ إِن كُنتُمْ لاَ تَعْلَمُونَ بِالْبَيِّنَاتِ وَالزُّبُرِ وَأَنزَلْنَا إِلَيْكَ الذِّكْرَ لِتُبَيِّنَ لِلنَّاسِ مَا نُزِّلَ إِلَيْهِمْ وَلَعَلَّهُمْ يَتَفَكَّرُونَ﴾

(Ya Rəsulum!) Biz səndən əvvəl də özlərinə vəhy etdiyimiz ancaq kişilər (kişi peyğəmbərlər) göndərmişdik. Əgər (bunu) bilmirsinizsə, zikr (kitab, elm) əhlindən soruşun! Biz onları (peyğəmbərliklərinin doğru olduğunu sübut edən) açıq-aşkar möcüzələr və kitablarla göndərdik. Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni izah edəsən və bəlkə, onlar da düşünüb dərk edələr! (Nəhl surəsi, ayə 43-44.)

## Digər bir ayədə deyilir:

﴿إِنَّا أَوْحَيْنَا إِلَيْكَ كَمَا أَوْحَيْنَا إِلَى نُوحٍ وَالنَّبِيِّينَ مِن بَعْدِهِ وَأَوْحَيْنَا إِلَى إِبْرَاهِيمَ وَإِسْمَاعِيلَ وَإِسْحَقَ وَيَعْقُوبَ وَالأَسْبَاطِ وَعِيسَى وَأَيُّوبَ وَيُونُسَ وَهَارُونَ وَسُلَيْمَانَ وَآتَيْنَا دَاوُودَ زَبُورًا﴾

(Ya Rəsulum!) Biz Nuha və ondan sonrakı peyğəmbərlərə vəhy göndərdiyimiz kimi, sənə də vəhy göndərdik. Biz İbrahimə, İsmailə, İshaqa, Yəquba və onun övladlarına, İsaya, Əyyuba, Yunisa, Haruna və Süleymana da vəhy göndərdik. Biz Davuda da Zəburu verdik. (Nisa surəsi, ayə163.)

﴿وَأَوْحَيْنَا إِلَى مُوسَى أَنْ أَلْقِ عَصَاكَ﴾

Biz də Musaya "Əsanı tulla!" deyə vəhy etdik. *(*Əraf surəsi, ayə 117.)

Peyğəmbərlərə nazil olan vəylər barədə ayələr çoxdur biz bu ayələrlə kifayətlənirik, sonradan bu barədə geniş

danışacayıq.

## Peyğəmbərlərə nazil olan vəhylər

Vəhyin ən çox istifadə olunduğu yer Peyğəmbərlər haqqındadır. Vəhy bu mənada Qurani-kərimdə 70-dəfədən artıq işlədilmişdir. Belə ki, vəhy sözü digər mənalarda və digər yerlərdə çox az işlədilmişdir. Buna görə də Əllamə Təbatəbai (r.h.) deyir: Dini ədəb və əxlaq bunu tələb edir ki, biz vəhy sözünü Peyğəmbərlərdən başqaları haqqda işlətməyək. (Təbatəbai, Əlmizan, c.12, s. 292.)

Amma vəhy nədir? Vəhy insan zehni və ağlına sığışmayan sirli bir varlıqdır. Təkcə vəhyi qəbul edənin onun həqiqətindən xəbəri var, digərləri isə onun həqiqətini deyil sadəcə olaraq onun təsir və nişanələrindən əldə etdiyi məlumatları bilir və dərk edir.

## Vəhyin bu tərifinə diqqət edək:

Vəhy səmavi bir danışıqdır ki, hiss və əqli təfəkkürlə dərk ediləsi deyil. Bəlkə digər bir dərk və şuurdu ki, Allahın istəyi ilə bəzi insanlarda yaranır. Hiss və ağıldan gizli olan qeybi göstərişləri vəhy və İlahi təlimdən qəbul edir. (Təbatəbai, Quran dər islam, s. 125.)

Bu ağıldan uca olan varlıq uca məqamlardan biridir ki, Peyğəmbərləri digərlərindən ayırır. Allah-taala Qurani-kərimdə peyğəmbərlərin də insan olmasına təkid edib və onların vəhy qəbul etmələrinə işarə etmişdir.

﴿فَقَالَ الْمَلَأُ الَّذِينَ كَفَرُوا مِن قَوْمِهِ مَا هَذَا إِلَّا بَشَرٌ مِّثْلُكُمْ يُرِيدُ أَن يَتَفَضَّلَ عَلَيْكُمْ وَلَوْ شَاء اللَّهُ لَأَنزَلَ مَلَائِكَةً مَّا سَمِعْنَا بِهَذَا فِي آبَائِنَا الْأَوَّلِينَ﴾

(Nuh) qövmünün kafir başçıları dedilər: "Bu sizin kimi yalnız adi bir insandır. (Peyğəmbərlik iddiası ilə) sizə böyüklük etmək istəyir. Əgər Allah (Ondan başqasına ibadət etməməyimizi) istəsəydi, (bizə peyğəmbər olaraq insan deyil) mələklər göndərərdi. Biz bunu (Nuhun təbliğ etdiyi tövhidi) ulu babalarımızdan eşitməmişik. (Mominun surəsi, ayə 24.)

Vəhyin nazil olmasını qəbul etmək onlar üçün çox çətin idi ona görə də dedilər Peyğəmbərə cin toxunub. Bu barədə Allah-taala Qurani-kərimdə belə buyurur:

﴿إِنْ هُوَ إِلَّا رَجُلٌ بِهِ جِنَّةٌ فَتَرَبَّصُوا بِهِ حَتَّى حِينٍ﴾

Bu adamda, sadəcə olaraq, bir dəlilik var. (Yəni Ona cin toxunmuşdur). Hələ bir müddət gözləyin!" (Mominun surəsi, ayə 24.)

## Digər bir ayədə deyilir:

﴿فَقَالُوا أَبَشَرٌ يَهْدُونَنَا فَكَفَرُوا وَتَوَلَّوا﴾

Bizi doğru yola bir insanmı salacaqdır?! deyərək (o peyğəmbərləri) inkar edib və (haqdan) üz döndərdilər. (Təğabun surəsi, ayə 6.)

Allah-taala onlara belə cavab verir. Peyğəmbərlər hamısı insandırlar insan

olmaq cəhətdən onlarla digərləri arasında heç bir fərq yoxdur. Yalnız fərqləri bundadır ki, Peyğəmbərlərə vəhy nazil olur digərlərinə isə vəhy nazil olmur. Bu haqqda Qurani-kərimdə deyilir.

﴿قُلْ إِنَّمَا أَنَا بَشَرٌ مِّثْلُكُمْ يُوحَى إِلَيَّ﴾

De: “Mən də sizin kimi ancaq bir insanam. (Kəhf surəsi, ayə 110; Fussilət surəsi, ayə 6.)

Qurani-kərimdə həzrət Peyğəmbərin (s) danışığının Allah tərəfindən olduğunu xəbər verir.

﴿وَمَا يَنطِقُ عَنِ الْهَوَى إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى﴾

O, kefi istəyəni danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir. (Nəcm surəsi, ayə 3.)

Peyğəmbərlərə nazil olan vəhylərin növləri

Allah-taala ilə Peyğəmbərlər arasında olan qeybi rabitəni biz vəhy adlandırırıq, oda üç halda həyata keçmişdir. Allah-taala Qurani-kərimdə buyurur:

﴿وَمَا كَانَ لِبَشَرٍ أَن يُكَلِّمَهُ اللَّهُ إِلَّا وَحْيًا أَوْ مِن وَرَاء حِجَابٍ أَوْ يُرْسِلَ رَسُولًا﴾

Allah bəşər övladı ilə ancaq birbaşa vəhylə yaxud pərdə arxasından danışar və ya bir mələk göndərər. (Şura surəsi, ayə 51.)

Deməli bu ayəyə əsasən Allahın öz peyğəmbərlərinə göndərdiyi vəhylər bu üç yoldan biri ilə həyata keçmişdir.

Birinci; Heç bir vasitə olmadan nazil olan vəhylər:

Heç bir vasitə olmadan nazil olan vəhylər, vəhylərin arsında ən çətin və ağır vəhydir. Allah-taala ilə Peyğəmbərın arasında vasitə olmadan vəhy Peyğəmbərin qəlbinə nazil olur.

İkinci; Səs icad etmək:

Peyğəmbər yalnız səs eşidir və ondan başqa bir şəxs o, səsi eşitmir, bu cür səs eşitmə və sahibini görməmək buna bənzəyir ki, bir şəxs pərdənin arxasından danışır. Qurani-kərim bu cür vəhyləri (أَوْ مِن وَرَاء حِجَابٍ) yəni pərdə arxasından adlandırıb. Həzrət Musaya nazil olan vəhylər bu qəbildəndir. Xüsusi ilə də Tur dağında həzrət Musaya vəhylər bu yolla nazil olurdu. Həmçinin Merac gecəsi həzrət Muhəmmədə (s) bu yolla vəhy olundu.

Üçüncü; Mələk vasitəsi ilə nazil olan vəhylər:

Məsələn Qurani-kərimin nazil olmasında həzrət Cəbrail Allahla Peyğəmbər arasında vasitə olmuşdur. Şura surəsində Peyğəmbərə vəhyin necə nazil olması açıqlanıb.

﴿وَكَذَلِكَ أَوْحَيْنَا إِلَيْكَ رُوحًا مِّنْ أَمْرِنَا مَا كُنتَ تَدْرِي مَا الْكِتَابُ وَلَا الْإِيمَانُ﴾

(Ya Rəsulum! Əvvəlki peyğəmbərlərə vəhy nazil etdiyimiz kimi) sənə də beləcə əmrimizdən olan bir vəhy göndərdik. Sən (bundan əvvəl) kitab nədir,

iman nədir bilməzdin. (Şura surəsi, ayə 52.)

Bu ayədən başa düşülür ki, Quranın vəhy olunması söz və danışıq yolu ilə olmuşdur. Ayədə deyilən Ruh, Ruhul-əmindir ki, Şüəra surəsində Allah-taala buyurur:

﴿وَإِنَّهُ لَتَنزِيلُ رَبِّ الْعَالَمِينَ نَزَلَ بِهِ الرُّوحُ الْأَمِينُ عَلَى قَلْبِكَ لِتَكُونَ مِنَ الْمُنذِرِينَ بِلِسَانٍ عَرَبِيٍّ مُّبِينٍ﴾

Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir! Onu Ruhuləmin endirdi: (Günahkarları Allahın əzabı ilə) qorxudan peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi); Özü də açıq-aydın ərəb dilində. (Şüəra surəsi, ayə 192-195.)

{وَلَقَدْ أَنزَلْنَآ إِلَيْكَ آيَاتٍ بَيِّنَاتٍ وَمَا يَكْفُرُ بِهَا إِلاَّ الْفَاسِقُونَ}

(Ya Rəsulum!) Biz sənə açıq-aydın dəlillər göndərdik, onları yalnız fasiqlər inkar edərlər. (Bəqərə surəsi, ayə 99.)

Birbaşa nazil olan vəhyin keyfiyyəti

Allah-taala Muzzəmmil surəsində belə deyir:

﴿إِنَّا سَنُلْقِي عَلَيْكَ قَوْلًا ثَقِيلًا﴾

Həqiqətən, Biz sənə ağır bir söz çatdıracayıq. (Muzzəmmil surəsi, ayə 5.)

Heç bir vasitə olmadan nazil olan vəhylər, vəhylərin arsında ən çətin və ağır vəhydir. Yəni Allah-taala ilə Peyğəmbərın arasında heç bir vasitə olmadan Allahla Peyğəmbərin arasında rabitə yaranırdı. Baxmayaraq ki, bu məsələni bizim zehn və ağlımızın dərk etməsi çətin məsələdir. Amma elə bilirəm ki, Quran ayəsi və hədislərdən sonra bunu başa düşmək elədə çətin olmaz.

Həzrət Peyğəmbər (s) heç bir vasitə olmadan nazil olan vəhyi əziyyət və çətinliklə qəbul edərdi.

Hişam Peyğəmbərdən soruşdu vəhy sizə necə nazil olur? Həzrət Peyğəmbər buyurdu: Bəzi vaxt zəng səsi kimi səs eşidirəm bu mənim üçün ən çətin və ağır vəhydir ki, mən onu qəbul edəndə yoruluram. Amma yorulmağıma baxmayaraq deyilənlərin hamısını əzbərləyirəm. Bəzi vaxtlarsa bir mələk kişi simasında zahir olur o, hər nə deyirsə əzbərləyirəm. (Təbərsi, Məcməul-bəyan, cild 1, səh 570.)

Əbdullah ibn Ömər deyir həzrət Peyğəmbərdən (s) vəhyin necə nazil olması haqqda soruşdum həzrət Peyğəmbər buyurdu: Zəng səsi kimi səslər eşidirəm o, zaman bədənimin bütün üzvləri sakit və aram olur. Hər vaxt mənə vəhy nazil olursa elə güman edirəm ki, ruhum bədənimdən çıxır.

Şeyx Səduq (r.h.) Tövhid adlı kitabında Zürarədən bir hədis nəql edir ki, imam Sadiqdən soruşdum qurbanın olum Peyğəmbərin özündən getməsi vəhy nazil olandaydımı? İmam cavab verdi. Onun özündən getməsi o, zaman olurdu ki, Onunla Allah-taala arasında heç bir vasitə olmurdu. Allah-taala öz əzəmət və cəlalı ilə onda təcəlli edərdi.

Aişədən nəql olunan bir hədisdə deyilir: Soyuq günlərin birində həzrət

Peyğəmbərə (s) vəhy nazil oldu vəhy qurtardıqdan sonra O, həzrətin alnından tər axırdı. (Biharul-ənvar, cild 18, səh 261; əl-Mizan, cild 18, səh 78.)

Vasitəsiz nazil olan vəhylərin bəzi xüsusiyyətlərini hədislərə əsasən qeyd edirik.

1-Zəng səsi kimi səslər, iki dəmirin bir-birinə dəyməsi kimi səslər yaxud bal arısı səsi kimi səslər eşidərdi.

2-Peyğəmbərin başı ağrıyardı.

3-Əgər bir heyvana mindiyi halda vəhy nazil olsaydı heyvan yeriyə bilməzdi.

4-Peyğəmbərin üzünün rəngi dəyişərdi.

5-Özündən gedərdi.

6-Çox ağır çətinliyə dözməli olurdu.

7-Soyuq havalarda tərləyərdi və s... .

Bu deyilənlərin hamısından bu nəticəyə çatırıq ki, Peyğəmbərə nazil olan vəhylərin arasında ən çətin və ağır vəhy bir başa yəni Allahla Peyğəmbərin arasında vasitə olmadan nazil olan vəhydir.

Vasitə ilə nazil olan vəhyin keyfiyyəti

Şübhəsiz ki, bu (Quran) aləmlərin Rəbbi tərəfindən nazil edilmişdir! Onu Cəbrail (Ruhuləmin) endirdi: (Günahkarları Allahın əzabı ilə) qorxudan (xəbərdar edən) peyğəmbərlərdən olasan deyə, sənin qəlbinə (nazil etdi). (Şüəra surəsi, ayə 192-194.)

Ayədə qeyd olunan qəlbdən məqsəd insan bədəninin sol tərəfində yerləşən bədən üzvü deyil. İnsanın nəfsidir ki, bütün hiss, dərk etmə və insanın idarə olunması ona bağlıdır. Deməli belə ifadə olunması (sənin qəlbinə nazil etdi) buna işarədir ki, həzrət Peyğəmbərin zahiri hiss orqanlarının heç bir dəxaləti olmadan vəhyi qəbul etmişdir. (Əl-mizan, cild 15, səh 317.)

Başqa bir sözlə desək həzrət Peyğəmbər bütün ruhu ilə vəhyi qəbul etmişdir və zahiri göz və qulaqın (bədən üzvləri) bu işdə heç bir rolu olmayıb. Əgər belə olmasaydı digər insanlarda Peyğəmbərin görüb və eşitdiklərin, görüb və eşidərdilər.

Vasitə ilə nazil olan vəhylər haqqda olan hədislərdən belə başa düşülür ki, bu vəhy Peyğəmbər üçün çətin olmayıb. Bəzi vaxtlar həzərt Cəbrail insan şəkildə həzrət Peyğəmbərə vəhyi gətirərdi. Həzrət imam Sadiqdən (ə) olan bir hədisdə deyilir:

Cəbrail Peyğəmbərin hüzuruna gələndə qul kimi oturardı və icazəsiz Peyğəmbərin olduğu yerə daxil olmazdı. (Biharul-ənvar, cild 18, səh 256.)

Bu hədis Peyğəmbərin Cəbrailin qarşısında olan əzəmətini çatdırır. Eləcədə bu hədisdən belə başa düşülür ki, mələk vasitəsi ilə nazil olan vəhylər həzrət Peyğəmbər üçün çətin deyilmiş. Bunu da qeyd etmək lazımdır ki, Həzrət Cəbrail Mədinədə yaşayan Dehyə ibn Xəlifə Kəlbi adlı bir şəxsin simasında Peyğəmbərə vəhy nazil edərmiş.

## Vəhyin mümkün olması

Burada belə sual olunur, vəhyin nazil olması mümkündürmü.?

Həqiqət budur ki, vəhy mücərrəd aləm ilə maddi aləmin arasında rabitə yaradır. Buna görə də sual yaranır ki, bu rabitə necə yarana bilər, mücərrəd aləm ilə maddi aləm arasında uyğunluq lazımdır. Amma biz burada heç uyğunluq görmürük.

Bəzi yeni fikirli insanlar yeni fikirlərlə vəhy mövzusuna baxıb deyirlər, peyğəmbərlərin vəhy adı ilə insanlara çatdırdıqları hər bir şey onların öz daxillərindən gələn fikirlərdir. Peyğəmbərlər pak və cəmiyyətdə islahat aparan şəxslər olubdurlar və həməşə xeyr işlər haqda düşünüblər. Onların yaxşı işlər haqda düşünmələri səbəb olub, vəhy bəzi vaxtlarda mələk şəkildə onlar üçün cilvələnsin. Peyğəmbərlərdə belə düşünüblər ki, onlara başqa bir yerdən ilham olunur. Bu cür şəxslərin düşüncə və fikirləri yaşadıqları zaman və mühütlərinə aiddir. Buna görə də danışıqlarında yaşadıqları zamanın bəzi inandıqları əqidələrini deyiblər və sonradan onların düzgün olmadıqları məlum olur. Yoxsa Allahın dediklərində yalan ola bilməz.

Cavab: İlahi peyğəmbərləri bu cür tanımaq onları inkar etmək deməkdir. Peyğəmbərləri bu cür tanıdanlar belə düşünürlər, peyğəmbərlər sadəlövh insanlardırlar və həqiqəti xəyaldan seçə bilməyiblər. Amma peyğəmbərlərin sədaqət və düzgünlükləri hamıya aydındır. Bu yeni fikirli insanlar iki səhvə yol veriblər.

Birinci: İlahi vəhy haqda tədqiqat aparmaq üçün təhrif olunmuş və səhv tərcümə edilmiş kitablara müraciət ediblər. Amma o kitablara müraciət etməmişdən qabaq gərək onların düzgün olduqlarına yəqinləri olardı.

İkinci: İnsanı maddi bir varlıq təsəvvür ediblər. Amma insan ruh və cisimdən təşkil olur. Ruhu mücərrəddir və uyğunluq ki, rabitənin yaranmasında şərtdir vəhyin nazil olmasına imkan yaradır. Qurani-kərim insanın yaranışını ana bətnində vəsf edəndən sonra ardıcıl mərhələlərlə onu bir mərhələyə çatdırır ki, maddi aləmdən ayırır və uca və əzəmətli ruh ona üfürülür.

﴿...وَلَقَدْ خَلَقْنَا الْإِنسَانَ مِن سُلَالَةٍ مِّن طِينٍ ثُمَّ جَعَلْنَاهُ نُطْفَةً فِي قَرَارٍ مَّكِينٍ ثُمَّ خَلَقْنَا النُّطْفَةَ عَلَقَةً فَخَلَقْنَا الْعَلَقَةَ مُضْغَةً فَخَلَقْنَا الْمُضْغَةَ عِظَامًا فَكَسَوْنَا الْعِظَامَ لَحْمًا﴾

Biz, həqiqətən, insanı tərtəmiz (süzülmüş) palçıqdan yaratdıq. Sonra onu (Adəm övladını) nütfə halında möhkəm bir yerdə (ana bətnində) yerləşdirdik. Sonra nütfəni laxtalanmış qana çevirdik, sonra laxtalanmış qanı bir parça ət etdik, sonra o bir parça əti sümüklərə döndərdik, sonra sümükləri ətlə örtdük. (Mominun surəsi, ayə 12-13.)

Qurani-kərim bu mərhələyə qədər insan yaranışının maddi mərhələlərini qeyd edəndən sonra deyir.

﴿ثُمَّ أَنشَأْنَاهُ خَلْقًا آخَرَ فَتَبَارَكَ اللَّهُ أَحْسَنُ الْخَالِقِينَ﴾

Sonra onu bambaşqa (yeni) bir məxluq olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur! (Mominun surəsi, ayə 14.)

Bu yaranış insan ruhunun yaranışıdır, ananın hamiləlik dövründən dörd ay keçəndən sonra ona üfürülür.

Digər bir ayədə yaranışın bu iki mərhələsinə işarə olunur.

﴿وَبَدَأَ خَلْقَ الْإِنسَانِ مِن طِينٍ ثُمَّ جَعَلَ نَسْلَهُ مِن سُلَالَةٍ مِّن مَّاء مَّهِينٍ ثُمَّ سَوَّاهُ وَنَفَخَ فِيهِ مِن رُّوحِهِ...﴾.

O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başladı. Sonra onun nəslini nütfədən bir qətrə zəif (dəyərsiz) sudan əmələ gətirdi. Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan (özünün yaratdığı ruhdan) üfürdü (həyat verdi). (Səcdə surəsi, ayə 7-9.)

Bu ayədə maraqlı nöqtə budur ki, insana üfürülən ruh Allah-taalanın özünə nisbət verilir və göstərir ki, ruh maddiyyatdan uca olan bir varlıqdır deməli mücərrəd aləm ilə rabitə yaratması heçdə təəccüblü deyil. Qeyd etmək lazımdır, vəhy hər şəxs üçün dərk və vəsf olunası deyil. Yalnız xüsusi insanlar onu dərk edə bilərlər.

Vərəqə ibn Nofəlin dastanı

Bu dastana istəyirik sualla başlayaq besətin əvvəlində Peyğəmbərin öz haqqında düzgün düşünməməsi və ona aşkar olan şeylər haqda şəkk etməsi mümkündürmü?

İkinci sual bundan ibarətdir ki, bəzi vaxtlar şeytan vəhydə dəxalət edib öz istəklərini vəhy kimi cilvələndirə bilərmi?

Əhli-beytdən (ə) olan hədislərə görə hər iki sualın cavabı mənfidir. Amma əhli-hədisin (Əhli-beyt təriqindən olmayan) yazılarında cavab müsbətdir. Onlar bəzi hədisləri nəql edirlər ki, ismət məqamı ilə müxalifdir. Bundan əlavə Nübüvvətin əsl və kökünü sual altına aparırlar. Əhli-hədisin rəvayətlərindən olan iki hədisi nəql edib əqli və nəqli cəhətdən onların düzəldilmə olmalarını aydınlaşdıracayıq.

Vərəqə ibn Nofəl həzrət Xədicənin əmisi oğlu və bir az savadlı və tarixdən xəbəri olan bir adam idi. Deyirlər O, besətin əvvəlində həzrət Peyğəmbərə nigarançılığından nicat verdi. Buxari, Müslüm, ibni Hişam və Təbəri hadisəni belə nəql edirlər.

Həzrət Muhəmməd (s) Həra mağarasında xəlvətcəsinə Allah ilə razu-niyaz edirdi, gözlənilmədən bir səs eşitdi ki, onu çağırırlar. Onu çağıranın kim olduğu üçün başını qaldırdı. Qorxu bir varlıqla üzləşdi. O, qorxu içində idi hər bir yerə baxırdısa onu görürdü o, bütün səmanı tutmuşdu. Qorxunun təsirindən özündən getdi və huşsus oldu. Bir qədər bu halda qaldı. Həzrət Xədicə onun evə gəlmədiyinə görə narahat idi buna görə də bir nəfəri onun arxasınca göndərdi. Amma o, Peyğəmbəri tapa bilmədi. Peyğəmbər özünə gəldikdən sonra ayağa qalxıb qorxu halında evə yollandı. Həzrət Xədicə soruşdu nə olub sənə? O,

cavab verdi nəhayət qorxduğum şey başıma gəldi. Həməşə qorxurdum ki, dəli olam indi ona düçür olmuşam. Həzrət Xədicə dedi özün haqda pis düşünmə sən İlahi bir kişisən (Allah sevən) və Allah səni heç vaxt öz başına buraxmaz. Allah qoysa nurlu gələcəyə bir bəşarətdir. Sonra həzrəti Peyğəmbərin (s) nigarançılığının tam aradan getməsi üçün onu Vərəqə ibn Nofəlin evinə apardı və hadisəni təfərrüatı ilə onun üçün danışdı. Vərəqə ibn Nofəl bir neçə sual soruşdu və sonda ona dedi nigaran olma bu Allahın həmən elçisidir ki, həzrət Musaya (ə) nazil olardı indi isə sənin üçün nazil olur və sənin peyğəmbərliyini bəşarət verir. Deyirlər həzrət Peyğəmbər (s) bu sözləri eşitdikdən sonra rahatlaşdı və dedi indi bildim ki, peyğəmbərəm. (Həyatu Muhəmməd, s. 95-96; Səhihe-Müslüm, c.1, s.97-99; Səhihe-Buxari, c.1, s.3-4; Sireye-ibni Heşam, c.1, s. 252-255; Tarixe-Təbəri, c.2, s.298-300, Əbu Cəfər Muhəmməd ibn Cəriri Təbəri, Camiul-bəyan, c.30, s.161, Əbu Cəfər Muhəmməd ibn Cəriri Təbəri.)

Bu İslamın ilk iki əsrində özlərini müsəlman adlandıranlar tərəfindən düzəldilmiş onlarla dastanlardan biridir. Onlar du dastanları düzəltməklə avam camaatın başını qarışdırıb, imanlı şəxslərin isə etiqadlarına zərbə vururdular və bu işləri ilə İslam dininin kökünə xəncər vururdular.

Necə ola bilər, həzrət Peyğəmbər, kamal mərhələləri keçsin və bir neçə müddət qabaqcadan peyğəmbərlik bəşarətini özündə hiss etsin amma həqiqət onun üçün aşkar olmasın. Necə ola bilər, kamala çatmış bir adam o cür şəraitdə şəkk edib və nigaran olsun. Bir qadın və az bir savadı olan bir kişinin bir neçə sualından sonra nigarançılığı aradan getsin və peyğəmbər olduğunu başa düşsün. Bu dastanın nübüvvət məqamı ilə zidd olmasından əlavə Quran ayələri və Əhli-beytdən (ə) olan hədislərlədə ziddiyət təşkil edir. Bəzi alimlərin nəzrlərini qeyd etməklə yanaşı bu dasatanın düzlməsi haqda olan dəllilləri qeyd edəcəyik.

Qazi Ayaz (vəfat: 544 h. q.) vəhyin peyğəmbərə şəkli və qaranlıq olmaması haqda yazır: Heç vaxt iblis mələk surətinə düşüb vəhyi Peyğəmbər üçün şübhəli və naməlum cilvələndirə bilməz. İstər bu iş besətin əvvəlində olsun istərsədə sonralar. Bu cür yerlərdə Peyğəmbərin aram olması və özünə inanması nübüvvətin möcizəliyinin dəlilidir. Heç vaxt Peyğəmbər ona gələn vəhy haqda şəkk etmir və yəqin surətində onun üçün aşkar olur. Çünki Allahın hikməti bunu tələb edir, bu iş kamil şəkildə onun üçün aşkar olsun, aşkar olan şeyi tamam vücudu ilə dərk etsin və ya kifayət qədər dəlillər onun ixtiyarında qoyur, Allahın kəlmələri sabit və möhkəm cilvələnsin. (Risalətuş-şəfa bitərifi huquqil-Mustəfa, c.2, s.112.)

﴿وَتَمَّتْ كَلِمَتُ رَبِّكَ صِدْقًا وَعَدْلاً لاَّ مُبَدِّلِ لِكَلِمَاتِهِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ﴾

(Ya Rəsulum!) Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O, (hər şeyi) eşidəndir, biləndir! (Ənam surəsi, ayə 115.)

Əminul-islam Təbərsi yazır: Həzrət Peyğəmbər digərlərini vəhy vasitəsi ilə hidayət etmək üçün hər növ xəta və səhvdən amanda qalmalıdır. Buna görə də Müddəssir surəsinin təfsirində deyir:  Allah-taala öz Rəsuluna aşkar dəlillər və nişanələrlə vəhy edir. Bunun özü də sübut edir ki, ona nazil olanlar Allah tərəfindəndir və digər bir şeyə ehtiyac yoxdur. Heç vaxt qorxudulmur, qorxmur və titrəmir. (Təbərsi Məcəməul-bəyan, cild 10, səh 384.)

Ümumiyyətlə Quran ayələri bunu çatdırırlar ki, peyğəmbərlər besətin əvvəlində vəhyi aşkar şəkildə qəbul ediblər və şəkk və şübhəyə düçar olmayıblar. Allahın hüzurunda olmaq elə bir məqamdır ki, orada şək, şübhə və qorxu yoxdur. Həzrət Musa (ə) peyğəmbərliyinin başlanğıcında Allah-taala tərəfdən xitab olunur:

Ya Musa! Mən, həqiqətən, sənin Rəbbinəm. Nəleynini çıxart, çünki sən müqəddəs vadidə -Tuvadasan! Mən səni (peyğəmbər) seçdim. (Sənə) vəhy olunanı dinlə! Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl! (Taha surəsi, ayə 11-14.)

Sonra ona deyir:

Ya Musa! Sağ əlindəki nədir? (Musa) dedi: “O mənim əsamdır. Ona söykənir, onunla qoyunlarımı xəzəl silkələyirəm. O, başqa işlərdə də karıma gəlir!” (Taha surəsi, ayə 17-18.)

Sonra ona göstəriş verilir

Əsanı (yerə) at! (Musa əsanı yerə atdı). O, (əsanın) ilan kimi qıvrıldığını gördükdə dönüb qaçdı, heç dala da baxmadı. (Biz ona belə buyurduq: ) “Ya Musa, qorxma! Peyğəmbərlər Mənim hüzurumda qorxmazlar. (Nəml surəsi, ayə 10.)

Görürük ki, Allah-taala peyğəmbəri qorxudan amanda saxlayır. Bu ümumi bir qanundır, hər kim o məqamda oldusa heç bir şeydən qorxusu olmaz. Çünki Allahın inayətinin kölgəsində və əminiyyətli bir mühütdə qərar tutub.

Həzrət  İbrahimin (ə) aram olması və eynul-yəqinə çatması üçün pərdələr gözünün qabaqından götürüldü ki, Mələkut aləminin həqiqətləri onun üçün kəşf olunsun.

Beləcə, İbrahimə göylərin və yerin mülkünü (səltənətini, oradakı qəribəlikləri və gözəllikləri, onların Allah qüdrəti ilə yaradılmasını) göstərdik ki, tam qənaətlə inananlardan olsun! (Ənam surəsi, ayə 75.)

Qeyd etdiyimiz ayələr göstərir ki, peyğəmbərlər Allahın hüzurunda hər növ şəkk və şübhədən uzaq olublar. Göylərin və yerin mülkünü (səltənətini, oradakı qəribəlikləri və gözəllikləri, onların Allah qüdrəti ilə yaradılmasını) görüblər ki, tam qənaətlə inananlardan olsunlar. Burada belə bir sualımız var görəsən həzrət Peyğəmbər (s) bu qanunda müstəsna idimi ki, belə bir vəziyyətdə öz başına buraxılsın və özü haqda şəkk və şübhəyə düşsün və qorxsun?  Görəsən həzrət Peyğəmbərin (s) məqamı həzrət İbrahim və Musadan (ə) aşağa idimi ki, Allahın onlara olan əhəmiyyət və diqqəti həzrət Peyğəmbər (s) barədə olmasın?

Həzrət Əli (ə) həzrət Peyğəmbərin (s) haqqında deyir:

Allah-taala gecə və gündüz onun üçün bir mələk təyin eləmişdi insani kəmalata göstəriş versin. (Sübhi Saleh, Nəhcül-bəlağə, qasiə xütbəsi, s.300.)

Bu haqda çoxlu səhih hədislər mövcuddur. Qeyd olunan iradlardan digər iradlar da mövcuddur ki, onların da bəzilərini qeyd edirik.

1-Dastanın sənədi hadisənin şahidi olan şəxsə çatmır. Buna görə də Mürsələ hesab olur (zəifdir).

2-Dastanın müxtəlif şəkildə nəql olunması onun düzəltmə olduğunu çatdırır;

Bir yerdə nəql olunur ki, həzrət Xədicə özü tək Vərəqə ibn Nofəlin yanına getdi. Başqa bir nəqldə deyilir ki, həzrət Xədicə Peyğəmbəri özü ilə apardı. Digər bir nəqldə deyilir Vərəqə ibn Nofəl Peyğəmbəri təvaf halında gördü və ondan kef-əhvalını soruşanda bu sözləri dedi. Başqa bir nəqldə deyilir, Əbu Bəkr Xədicəyə dedi, Muhəmmədi (s) Vərəqə ibn Nofəlin yanına apar.

Dastanın nəql olunması o qədər müxtəlifdir ki, onu oxuyan bilmir bunların hası biri düzgündür.

3-Çoxlu nəqillərdə peyğəmbərin peyğəmbərliyini bəşarət verməyindən əlavə deyilir: əgər onun besət dövrünü görsəm ona iman gətirib və ona kömək edəcəm. Lakin Vərəqə ibn Nofəl Peyğəmbərə iman gətirmədi. İbni Əbbasdan olan bir hədisdə deyilir. Vərəqə ibn Nofəl nəsrani halda dünyadan getdi.

Burhanuddin Hələbi yazır: Vərəqə ibn Nofəl həzrət Peyğəmbərin besətindən dörd il sonra dünyadan köçdü. İbni Cozi əl-İmta kitabından nəql edir ki, Fətrət dövründə (besətin ilk üç ili) axırıncı şəxs ki, dünyasını dəyişdi Vərəqə ibn Nofəl idi amma iman gətirməmişdi və İbni Əbbasdan bir hədis gətirir ki, Vərəqə ibn Nofəl nəsrani halda dünyadan getdi. (Hələbi, Sireyi Hələbiyyə, c.1, s.250-252.)

Bu dəlillərin hamısı dastanın düzəldilməsinə dəlalət edirlər.

Ğəraniq əfsanəsi

İlahi vəhy haqda irəli sürülmüş iradlardan biri şeytanın Allah-taala tərəfindən vəhy gətirən mələk simasında cilvələnməsidir. Bu ayələr şytani ayələr kimi tanınıblar. Beləliklə deyirlər həzrət Peyğəmbər vəhyi qəbul edəndə aldanma ehtimalı var.

Ğəraniq əfsanəsində deyilir həzrət Peyğəmbər həməşə bu arzuda idi ki, onunla Qüreyş tayafası arasında mehribançılıq yaransın. Bir gün həzrət Peyğəmbər Qüreyş tayfası ilə onun arasında olan ayrılıq və ixtilafdan nigaran və fikirli halda Kəbə evinin kənarında əyləşmişdi. Qüreyş tayafasından da bir dəstə adam onun kənarında idilər. Elə bu vaxt Nəcm surəsi ona nazil olur. Surə nazil olduqca həzrət Peyğəmbər onu tilavət edir.

Bismillahir-rəhmanir-rəhim! Batmaqda olan ulduza and olsun ki, Sizin yoldaşınız (Muhəmməd (s)) nə haqq yoldan sapmış, nə də azmışdır! O, kefi istəyəni danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir. Onu (Muhəmmədə (s)) çox qüvvətli olan (Cəbrail) öyrətdi. O qüvvət sahibi (Peyğəmbərə öz həqiqi şəklində) göründü. O (Cəbrail) ən uca üfüqdə idi. Sonra

(Cəbrail Muhəmmədə (ə)) yaxınlaşdı və aşağı endi. (Onların arasındakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu. Sonra (Cəbrail Allahın Öz) bəndəsinə (Mühəmmədə) vəhy buyurduğunu vəhy etdi. Qəlb (Peyğəmbərin qəlbi) gördüyünü yalan saymadı. (Muhəmməd (s) gözü ilə gördüyünün Cəbrail olduğuna qəlbdən inandı). Siz onunla gördüyü barəsində mübahisəmi edirsiniz? And olsun ki, (Muhəmməd (s) Cəbraili öz həqiqi surətində) başqa bir dəfə də (merac vaxtı) görmüşdü; (Yeddinci göydəki) Sidrətül-müntəhanın yanında. (Mələklər, şəhidlər və müttəqilər məskəni olan) Məva cənnəti onun yanındadır. O zaman Sidrəni nələr bürümüşdü, nələr! Göz nə yayındı, nə də uzağa getdi (hər şeyi olduğu kimi gördü). And olsun ki, (Peyğəmbər) öz Rəbbinin ən böyük qüdrət nişanələrindən bir qismini gördü. (Ey müşriklər!) Bir deyin görək (sizin ibadət etdiyiniz) Lat və Uzza nəyə qadirdirlər?! Digər üçüncü (büt) olan Mənat da həmçinin?! (Nəcim surəsi 1-20.)

Bu ayələri oxuduqdan sonra şeytan Peyğəmbərin (s) özü də başa düşmədən belə ilqa etdi.

﴿تلک الغرانیق العلی و ان شفاعتهن لترتجی﴾

Yəni bu uca gözəl quşların (müşrüklərin sitayiş etdikləri lat, uzza və mənat adlı bütlərin) insanları şəfaət etməsinə ümüd vardır.

Peğəmbər də onu Quran ayələrinin ardınca oxuyur. Bunu eşidən müşrüklər sevinib və müsəlmanlara qarşı tutduqları mövqeylərini dəyişdilər və müsəlmanlarla dostluq və qardaşlıq rabitəsi yaratdılar. Bu xəbər Efopiyaya hicrət etmiş müsəlmanlara çatır. Onlar çox sevinib geri qayıtdılar və müşrüklərlə qardaş kimi yaşamağa başladılar. Onların hamısından çox Peyğəmbərin özü sevinirdi. Axşam Peyğəmbər evə qayıtdıqdan sonra həzrət Cəbrail enərək yeni nazil olan surəni onun üçün oxumasını istəyir. Peyğəmbərdə ona nazil olan ayələri oxuyub şeytanın ona ilqa etdiyi sözləri oxuyanda Cəbrail onun başına qışqırıb deyir sakit ol! Bunlar nədir ki, deyirsən. Peyğəmbər Allahın adına dediyi yalana görə narahat olur.

Deyirlər bu haqda aşağıdakı ayə nazil oldu.

﴿وَإِن كَادُواْ لَيَفْتِنُونَكَ عَنِ الَّذِي أَوْحَيْنَا إِلَيْكَ لِتفْتَرِيَ عَلَيْنَا غَيْرَهُ وَإِذًا لاَّتَّخَذُوكَ خَلِيلاً  وَلَوْلاَ أَن ثَبَّتْنَاكَ لَقَدْ كِدتَّ تَرْكَنُ إِلَيْهِمْ شَيْئًا قَلِيلاً  إِذاً لَّأَذَقْنَاكَ ضِعْفَ الْحَيَاةِ وَضِعْفَ الْمَمَاتِ ثُمَّ لاَ تَجِدُ لَكَ عَلَيْنَا نَصِيرًا﴾

(Ya Rəsulum! Qurandan) qeyri bir şeyi yalandan Bizə istinad edəsən (iftira yaxasan) deyə, (müşriklər) səni hardasa o sənə vəhy etdiyimizdən sapdıracaqdılar. Belə olacağı təqdirdə, səni, sözsüz ki, özlərinə dost tutacaqdırlar. Əgər Biz sənə səbat verməsəydik, yəqin ki, az da olsa, onlara uyacaqdın! (Belə olacağı təqdirdə) sənə həyatın və ölümün ikiqat əzabını daddırardıq. Sonra Bizə qarşı özünə bir yardım edən də tapa bilməzsən. (İsra surəsi, ayə 73-75.)

Bu ayə Peyğəmbərin qəm-qüssəsini dahada artırdı. Allah-taala Peyğəmbərin

qəm-qüssəsini aradan aparmaq üçün bu ayələri nazil etdi.

﴿وَمَا أَرْسَلْنَا مِن قَبْلِكَ مِن رَّسُولٍ وَلَا نَبِيٍّ إِلَّا إِذَا تَمَنَّى أَلْقَى الشَّيْطَانُ فِي أُمْنِيَّتِهِ فَيَنسَخُ اللَّهُ مَا يُلْقِي الشَّيْطَانُ ثُمَّ يُحْكِمُ اللَّهُ آيَاتِهِ وَاللَّهُ عَلِيمٌ حَكِيمٌ﴾

(Ya Rəsulum!) Biz səndən əvvəl də (şəriət sahibi olan) elə bir rəsul, (şəriət sahibi olmayıb onun ardınca gedən) elə bir nəbi (peyğəmbər) göndərmədik ki, o, (hər hansı bir şeyi) arzu etdikdə Şeytan onun arzusuna (diləyinə vəsvəsə yolu ilə) bir xələl qatmasın! (Yaxud o, ayələrimizi oxumaq istədiyi zaman Şeytan onu çaşdırıb oxuduğu ayə barəsində pis bir fikir təlqin etməsin!) Lakin Allah Şeytanın vəsvəsəsini batil (yox) edər. Sonra isə Allah Öz ayələrini möhkəmlədər. Allah (hər şeyi) biləndir, hikmət sahibidir! (Həcc surəsi, ayə 52.)

Nəhayət peyğəmbər bu ayələri eşitdikdən sonra onun bütün narahatçılığı aradan getdi. (Təbəri, Camiul bəyan, c.17, s.131-134.)

Cavab: İslam dini alimlərindən heç kim bu əfsanəni qəbul etməyiblər. Bütün alimlər bu dastanın bəzi şəxslər tərəfindən düzəldiyini deyirlər. Qazi Ayaz deyir: Bu hədis sihah kitablarının heç birində nəql olunmayıb və etibarlı şəxslərdən də heç kim bu əfsanəni nəql etməyib. (Risalətuş-şəfa, c.2, s. 117.)

Əbubəkr ibn Ərəbi deyir: Təbərinin bu haqda rəvayət etdikləri hamısı əsassızdır. (Fəhul-bari, c. 8, s. 333.)

Muhəmməd ibn İshaq bu əfsanə haqda bir kitab yazıb və onu kamil şəkildə yalan olduğunu deyir. (Razi, Təfsiru Məfatihul ğeyb, c.3, s.50.)

Elə bilirəm bu əfsanənin əvvəli və axırında olan fərqi deməyə ehtiyac yoxdur. Çünki hər oxucu bir az diqqət etsə bu fərqi görə bilər. Maraqlı burasıdır ki,bu əfsanəni yazan təcrübəsiz olub çünki bu surə aşağıdakı ayələrlə başlayır.

﴿بسم الله الرحمن الرحيم وَالنَّجْمِ إِذَا هَوَى مَا ضَلَّ صَاحِبُكُمْ وَمَا غَوَى وَمَا يَنطِقُ عَنِ الْهَوَى إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى عَلَّمَهُ شَدِيدُ الْقُوَى﴾

Bismillahir-rəhmanir-rəhim! Batmaqda olan ulduza and olsun ki, Sizin yoldaşınız (Muhəmməd (s)) nə haqq yoldan sapmış, nə də azmışdır! O, kefi istəyəni danışmır. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir. Onu (Muhəmmədə (s)) çox qüvvətli olan (Cəbrail) öyrətdi.

Bu ayələrdə həzrət Peyğəmbbərin (s) haqq yoldan azmamasına və kefi istəyəni danışmamasına təkid olunur. Həmçinin təkid olunur ki, Peyğəmbər (s) hər nə deyirsə vəhydir ﴿إِنْ هُوَ إِلَّا وَحْيٌ يُوحَى﴾. Əgər iblis burada istədiyini vəhy ünvanında Peyğəmbərə (s) çatdırsa bunun nəticəsi allahın kəlamının yalan olmasına dəlalət edir. Amma şeytan Allahın istədiyinə qələbə çala bilməz. Bu haqda Nisa surəsini 76-cı ayəsində deyilir. إِنَّ كَيْدَ الشَّيْطَانِ كَانَ ضَعِيفًا Həqiqətən şeytanın hiyləsi zəifdir.

Müadilə surəsi 21-ci ayədə deyilir.

﴿كَتَبَ اللَّهُ لَأَغْلِبَنَّ أَنَا وَرُسُلِي إِنَّ اللَّهَ قَوِيٌّ عَزِيزٌ﴾

Allah (lövhi-məhfuzda): "And olsun ki, Mən və peyğəmbərlərim qalib gələcəyik!" deyə yazmışdır. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, qüdrət sahibidir!

"Əziz" məğlub olunmaz şəxsə deyilir. Zəif olan şeytan qüdrət sahibi olan Allaha necə qələbə çala bilər? deməli bu mümkün deyil.

Qurani-kərim Allah pənahında olan möminlərə şeytanın nüfuz etməsini inkar edir. Allah-taala Qurani-kərimdə buyurur:

﴿إِنَّهُ لَيْسَ لَهُ سُلْطَانٌ عَلَى الَّذِينَ آمَنُواْ وَعَلَى رَبِّهِمْ يَتَوَكَّلُونَ﴾

Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərin üzərində Şeytanın heç bir hökmü yoxdur! (Nəhl surəsi, ayə 99.)

﴿إِنَّ عِبَادِي لَيْسَ لَكَ عَلَيْهِمْ سُلْطَانٌ وَكَفَى بِرَبِّكَ وَكِيلاً﴾

Doğrusu, Mənim (mömin) bəndələrim üzərində sənin heç bir hökmün ola bilməz. Rəbbinin vəkil olması (sənin şərindən və vəsfəsəndən onları qoruması) kifayət edər! (İsra surəsi, ayə 65.)

﴿وَقَالَ الشَّيْطَانُ لَمَّا قُضِيَ الأَمْرُ إِنَّ اللَّهَ وَعَدَكُمْ وَعْدَ الْحَقِّ وَوَعَدتُّكُمْ فَأَخْلَفْتُكُمْ وَمَا كَانَ لِيَ عَلَيْكُم مِّن سُلْطَانٍ إِلاَّ أَن دَعَوْتُكُمْ فَاسْتَجَبْتُمْ لِي فَلاَ تَلُومُونِي وَلُومُواْ أَنفُسَكُم مَّا أَنَاْ بِمُصْرِخِكُمْ وَمَا أَنتُمْ بِمُصْرِخِيَّ إِنِّي كَفَرْتُ بِمَآ أَشْرَكْتُمُونِ مِن قَبْلُ إِنَّ الظَّالِمِينَ لَهُمْ عَذَابٌ أَلِيمٌ﴾

İş bitdikdə (cənnətliklər Cənnətə, cəhənnəmliklər də Cəhənnəmə daxil olduqda) Şeytan (onu məzəmmət edən kafirlərə) belə deyəcək: "Allah (peyğəmbərlər vasitəsilə) sizə (pis əməllərinizə görə Cəhənnəmə düşəcəyiniz barədə) doğru vəd vermişdi. Mən də sizə (kömək edəcəyim haqda) vəd vermişdim, amma sonra vədimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hökmüm (sizi özümə tabe edə biləcək heç bir qüdrətim) yox idi. Lakin mən sizi (günah işlətməyə, Allaha asi olmağa) çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma. Mən öncə (dünyada) sizin məni (Allaha) şərik qoşmağınızı da inkar etmişdim (qəbul etməmişdim). (İbrahim surəsi, ayə 22.)

﴿إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ﴾

Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu (hər cür təhrif və təbdildən; artırıb-əskiltmədən) qoruyub saxlayacağıq! (Hicr surəsi, ayə 9.)

﴿لَا يَأْتِيهِ الْبَاطِلُ مِن بَيْنِ يَدَيْهِ وَلَا مِنْ خَلْفِهِ تَنزِيلٌ مِّنْ حَكِيمٍ حَمِيدٍ﴾

Nə öncə, nə də sonra batil ona yol tapa bilməz (Şeytan onun bir sözünü, bir hərfini belə dəyişə bilməz). O, hikmət sahibi, şükrə (tərifə) layiq olan (bütün işləri bəyənilən Allah) tərəfindən nazil edilmişdir. (Fussilət surəsi, ayə 42.)

Deməli bu ayələrə əsasən Quran daimən tarix boyu hər bir təhlükədən amanda qalacaqdır. Heç kəs onu çoxalda və azalda bilməz. Bəs necə ola bilər ki,

iblis surə nazil olanda ona bir şey artırsın. Bunlardan da əlavə Peyğəmbər məsumdur xüsusi ilə də şəriəti qəbul edib insanlara çatdırmaqda.

Deməli Ğəraiq əfsanəsi bəzi şəxslər tərəfindən düzəlmiş yalan bir hədisdir ki, Peyğəmbərə və Qurana nisbət verilir.

Vəhy və ya sehr

İlahi vəhy haqda irəli sürülən iradlardan biri ilahi vəhyin sehr sayılmasıdır. Beləliklə müqəddəs kitabımız Qurani-kərim Allah-taala tərəfindən deyil bəşər tərəfindən olduğu iddia olunur. Bu haqda Qurani-kərimdə deyilir.

﴿أَكَانَ لِلنَّاسِ عَجَبًا أَنْ أَوْحَيْنَا إِلَى رَجُلٍ مِّنْهُمْ أَنْ أَنذِرِ النَّاسَ وَبَشِّرِ الَّذِينَ آمَنُواْ أَنَّ لَهُمْ قَدَمَ صِدْقٍ عِندَ رَبِّهِمْ قَالَ الْكَافِرُونَ إِنَّ هَـذَا لَسَاحِرٌ مُّبِينٌ﴾

İçərilərindən bir adama: "İnsanları (Allahın əzabı ilə) qorxut, iman gətirənləri (yaxşı əməllərinə görə) Rəbbi yanında gözəl mükafat gözlədiyi ilə müjdələ!" deyə vəhy etməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: "Bu, həqiqətən, açıq-aşkar bir sehrbazdır!" dedilər. (Yunis surəsi, ayə 2.)

Ayədən göründüyü kimi, bu iradlar hələ həzrət Peyğəmbərin (s) dövründə mövcud olmuşdur.

Möcüzə olan vəhylə sehrin fərqi açıqlandıqdan sonra bu irad və şübhə öz-özünə aradan gedəcək. Ona görə möcüzə ilə vəhyin fərqini qeyd edirik.

1-Sehr təlim-tərbiə ilə əldə olunan bir elmdir. Amma möcüzəni isə təlim-tərbiə ilə əldə etmək mümkün deyil. Yalnız Allahın izni ilə həyata keçir.

2-Sehri təsirdən salmaq mümkündür. Amma möcüzəni təsirdən salmaq mümkün deyil. Yəni hər bir bacarıqlı şəxs digərinin etdiyi sehri təsirsizləşdirib ona qləbə çala bilər. Amma möcüzə olan vəhyə qələbə çalmaq mümkün deyil. Buna misal olaraq həzrət Musa peyğəmbərin (ə) Firon tərəfindən olan sehirbazlara qalib gəlməsini nümunə üçün qeyd etmək olar. (Əraf surəsi, ayə 104-122.)

3-Sehir adətən dünyəvi işlər üçün həyata keçir amma möcüzə belə deyil.

4-Möcüzə sayılan vəhy Allah tərəfindən sehr isə qeyri İlahi vasitələrdən qaynaqlanır.

5-Vəhy xariqul-adədir amma sehr belə deyil.

6-Vəhyin nazil olmasında hədəf insanları hidayət etməkdir. Amma sehr belə deyil.

Deməli bu qeyd olunanlardan belə başa düşülür, vəhy ilə sehr arasında mövcud olan fərqlərdən anlayışı olan bir şəxs vəhyi sehrlə bir səviyyədə tutmaz.

Nəticə

"Vəhiy" sözünün leksik mənası söz, yazı, rəmzli işarələr, ilham olmaq və s-dir. Lakin terminoloji mənada isə, Allah-taalanın müəyyən hədəflər əsasənda öz Peyğəmbərlərindən birinə qeri adi bir yolla həmçinin öz yaxın mələyi və ya digər bir vasitələrlə çatdırdığı söz, fərman və göstərişə vəhy deyilir. Vəhy Quranda mələklər, şeytanlar, insan, heyvan və yer haqqda işlədilmişdir.

Vəhyin ən çox istifadə olunduğu yer Peyğəmbərlər haqqındadır. Allah-taala ilə Peyğəmbərlər arasında olan vəhy üç halda həyata keçmişdir.

Heç bir vasitə olmadan nazil olan vəhylər, səs icad etmək və Mələk vasitəsi ilə nazil olan vəhylər:

Vəhy insan zehni və ağlına sığışmayan sirli bir varlıqdır. Təkcə vəhyi qəbul edənin onun həqiqətindən xəbəri vardır, digərləri isə onun həqiqətini deyil sadəcə olaraq onun təsir və nişanələrindən əldə etdiyi məlumatları bilir və dərk edir.

Ədəbiyyat siyahisi

Qurani-kərim.

Nişapuri, Hüseyn ibn Əli Xüzai, Təfsiru Əbil-futufi Razi (Rəvzətul-cinan və ruhul-cənan fi təfsiril-quran), təshih: Muhəmməd Cəfər Yahəqi və Muhəmməd Məhdi Nasih, Bunyade pejuheşhaye astane qudse rəzəvi (ə) Məşhəd, 1372 h. ş.

Təbatəbai, Muhəmməd Hüseyn, Əl-mizan fi təfsiril-Quran, Darul kutubil islamiyyə, Tehran, beşinci çap,1372 h. ş.

Təbatəbai, Muhəmməd Hüseyn, Quran dər İslam, Darul-kutubul İslamiyyə, Tehran, ikinci çap, 1353 h.ş.

Təbərsi, Əbulfəzl ibn Həsən, Məcməul-bəyan fi təfsiril-Quran, Darul-mərifət, Beyrut, birinci çap,1986 m.

Təbəri, Əbu Cəfər Muhəmməd ibn Cərir, Camiul-bəyan, darul-mərifə, Beyrut, birinci çap, 1412 h.q.

İsfəhani, Rağib, Müfrədatu əlfazil-Quran, təhqiq: Səfvan Ədnan Davudi, Darul-qələm, Dəməşq, birinci çap, 1996 m.

Suyuti, Cəlaləd-din Əbdurrəhman, Əl-itqan fi-ulumil-quran, Darul-kutubil-elmiyyə, Beyrut, birinci çap, 1987 m.

Zərqani, Muhəmməd Əbduləzim, Mənahilul-irfan, fi-ulumil Quran, Darul kutubil islamiyyə, Beyrut, 1988 m.

Əlməktəbul-elamil-islami, Ulumul-quran indəl-mufəssirin, Qum, birinci çap, 1376 h.ş.

Zərkeşi, Muhəmməd ibn Bahadur Əbdullah, Əl-burhan fi-ulumil Quran, təhqiq: Əbdurrəhman Mərəşi, Həmdi Zəhəbi, və İbrahim Əbdulllah Kordi, Beyrut, Darul-mərifət, 1990 m.

Ramyar, Muhəmməd, Tarixe-quran, Tehran, Sepehr, 1362.

Mərifət, Muhəmməd Hadi, Əl-təmhid fi ulumil-Quran, Qum, Dəftəre intişarate-islami.

Mərifət, Muhəmməd Hadi, Təlxisut-təmhid, Mussiseyi fərhəngiye Təmhid, beşinci çap, 1383 h.ş.

Kuleyni, Əbu Cəfər Muhəmməd ibn Yəqub, Usulu-kafi, Darul-kutubil islamiyyə, Tehran, üçüncü çap,1388 h. q.

Məclisi, Məhəmməd Baqir, Biharul-ənvar, muəssisətul-vəfa, Beyrut, ikinci çap, 1983 m.

Firuzabadi, Məcdaldin Məhəmməd, Qamusul Muhit, darul-kutubul- elmiyyə Beyrut.

İbn Mənzur, Muhəmməd ibn Mukrim, Lisanul-ərəb, Daru Sadirat, Beyrut, üçüncü çap, 1414 h.q

Sübhi Saleh, Nəhcül-bəlağə, Mərkəzu əl-buhusu əl-İslamiyyə, Qum, 1374 h.q.

Hələbi, Burhanuddin, Sireye Hələbiyyə, Darul-kutubul elmiyyə, Beyrut, 1427 h.q.